

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 161 (23.573)

24 sentyabr 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 23-də Bakının Balaxanı qəsəbəsində aparılan abadlıq işləri ilə tanış olublar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Balaxanı qəsəbəsində aparılan abadlıq işləri barədə məlumat verilib. Bildirilib ki, burada görülən işlər qəsəbənin qədim və XX əsrin əvvəllərinə aid olan hissəsini əhatə edir. Qəsəbədəki tarixi-memarlıq abidələrinin bərpası, ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində çox böyük işlər görülüb. Qəsəbədəki Mirzə Ələkbər Sabir adına park da bərpa olunub. Diqqətə çatdırılıb ki, Balaxanıdakı Şah Səfi karvansarayı 1635-1636-cı illərdə inşa olunub. Bu tarixi abidə yerli əhəng daşı materiallarından tikilib və əhali arasında Xacə Ruhulla imarəti kimi tanınıb.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya qəsəbədəki Hacı Şəhla Məscidi və Şakir ağa türbəsinin bərpası barədə də məlumat verilib. Bildirilib ki, Balaxanı qəsəbəsində vaxtilə 18 hamam olub. Demək olar ki, hər məhəllədə hamam inşa edilib və onlar həm adlarına, həm də memarlıq üslubuna görə bir-birindən fərqlənib.

Dövlətimizin başçısı və birinci xanım əncir dəriblər, göyərçinlərə tamaşa ediblər.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Balaxanı sakinləri ilə görüşüblər. Sakinləri salamlayan Prezident İlham Əliyev Balaxanı kəndinin yeni dövrünün başlaması münasibətilə onları təbrik edib.

## Gələcək polislərin andiçmə mərasimi keçirilib



***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində gələcək polislərin andiçmə mərasimi keçirilib. Tədbirdə əvvəlcə Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərova raport verilib, sonra Azərbaycan Respublikasının Dövlət Himni oxunub.***

Nazir polis andı qəbul edəcək kursantları, məktəbin pedaqoji kollektivini bu münasibətlə təbrik edib, onlara təhsildə müvəffəqiyyətlər arzulayıb.

Bildirilib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət quruculuğu strategiyasını uğurla davam etdirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bütün sahələr ilə yanaşı, daxili işlər orqanlarına da daim yüksək diqqət və qayğı ilə yanaşır, Daxili İşlər Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilməsini diqqət mərkəzində saxlayır. Bu sahədə görülən işlərin tərkib hissəsi kimi Ali Məclis Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə Orta İxtisas Polis Məktəbinin yaradılması xüsusilə mühüm əhəmiyyət kəsb edir.

Qeyd olunub ki, muxtar respublikanın daxili işlər orqanları hərtərəfli şəraitdən bəhrələnərək, hər il əvvəlki ilin müsbət göstəricilərindən daha yüksək nailiyyətlər qazanmaqla, fəaliyyətin təkmilləşdirilməsi və günün tələbləri səviyyəsində qurulması istiqamətində mütəmadi olaraq yeni metod və vasitələrdən istifadə edirlər. Yaradılmış müasir iş şəraiti və polisin cəmiyyətdə tutduğu mövqe son dövrlər bu orqanda xidmət etmək arzusunda olan gənclərin sayını xeyli artırıb. Bu, muxtar respublika üçün böyük strateji əhəmiyyətə malik olan Orta İxtisas Polis Məktəbinə qəbul üçün müraciət edən abituriyentlərin sayının artmasında da özünü göstərir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müvafiq qərarı ilə təsdiq edilmiş "Polis əməkdaşlarının andiçmə Qaydaları"na əsasən bu gün 2020-2021-ci tədris ilində Orta İxtisas Polis Məktəbinə qəbul olmuş 30 kursant "Polis andı"nı qəbul edir. Andiçmə mərasimi hər bir kursant və əməkdaşın həyatında ən yaddaqalan və xüsusi anlamı olan bir gündür. Gənc kursantlar qəbul etdikləri bu anda sadiq qalmalı, polis adını daim uca tutmalı, cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunmasında, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, peşəkarlıqlarını yüksəltmək üçün daim bilik və bacarıqlarını artırmalıdırlar.

Vurğulanıb ki, daxili işlər orqanlarında peşəkar kadr potensialının formalaşmasına, qanunçuluğa, xidməti və icra intizamına, etik davranış qaydalarına əməl olunmasına, eləcə də əməkdaşların nəzəri-praktik və mənəvi-psixoloji hazırlığının təmin edilməsinə xüsusi diqqət yetirilir. Ona görə də peşəkar polis əməkdaşı kimi yetişmək üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun polis məktəbinin açılışında qeyd etdiyi: ***"Bu gün Orta İxtisas Polis Məktəbinə qəbul olunanlar yaxşı oxumaqla yanaşı, həm də vətənpərvər yetişməlidirlər. Özünüzü ciddi intizama və zabit məsuliyyətinə indidən hazırlamalı, çox mütaliə etməli, müasir texnologiyaları yaxşı mənimsəməli və onlardan bacarıqla istifadə etmək vərdişlərinə yiyələnməlisiniz"*** dəyərli tövsiyələri əsas təhsil şüarı kimi yadda saxlanılmalı və bu, tədris prosesində qüsursuz icra olunmalıdır.

Fazil Ələkbərov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi altında təhsil və şərəfli xidmət yolunda "Polis andı" qəbul edən kursantlara uğurlar arzulayıb. Nazir əmin olduğunu bildirib ki, Orta İxtisas Polis Məktəbində təhsil alan kursantlar ulu öndər Heydər Əliyev ideyalarına və vəzifə borcuna daim sadiq qalaraq dövlətçilik amallarına sədaqətlə qulluq edəcək, peşəkar polis əməkdaşı kimi yetişmək üçün səy və bacarıqlarını əsirgəməyəcəklər.

Tədbirdə məktəbin rəisi, polis polkovniki Kamil Məmmədəliyev, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Yusif Həsənov, kursant Ruzi Əhmədov çıxış ediblər.

"Polis andı" qəbul edildikdən sonra Daxili İşlər naziri kursantlarla söhbət edib, məktəbin tədris prosesi, yataqxanada və yeməkxanada yaradılmış şəraitlə yaxından tanış olub, kursantlarla birlikdə nahar edib.

**Muxtar MƏMMƏDOV**

## Buraxılış tədbiri olub

*Naxçıvan Qarnizonu Qoşunlarında təşkil olunan növbəti kursların başa çatması münasibətilə buraxılış mərasimi keçirilib. Kursları uğurla bitirənlər müxtəlif hərbi vəzifələrə təyin olunublar.*

Mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra polkovnik Mehman Gülməmmədov kurslar zamanı hər bir kursantın müasir hərb elminə aid yeni biliklərə yiyələndiyini və praktik vərdişlərini təkmilləşdirdiyini qeyd edib.

Məzunlar adından Kamil Quliyev kurslarda qazandıqları yeni taktiki bilikləri döyüş tapşırıqlarının icrası zamanı uğurla tətbiq edəcəklərinə söz verib.

Naxçıvan Qarnizonunun rəisi, general-polkovnik Kərəm Mustafayev



şəxsi heyəti təbrik edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsi nəticəsində bu gün işğal altındakı torpaqlarımızı düşməndən azad etməyə qadir olan peşəkar Ordumuz formalaşıb. Muxtar respublikamızın etibarlı müdafiəsini təmin edən Naxçıvan Qarnizonu Qoşunlarında peşəkar hərbçilərin yetişdirilməsi ordu quruculuğu istiqamətində görülən işlərin, dövlət qayğısının və xalq-ordu birliyinin bəhrəsidir. Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təliminin birinci mərhələsinin icrasına nəzər salsaq, görərik ki, hərbi qulluqçuların tapşırıqları peşəkarcasına yerinə yetirməsi kurslarda qazanılanların nəticəsidir.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib.

Xatirə lövhələrinə buraxılış emblemləri vurulub, məzunların yeni vəzifələrə təyin olunmaları ilə bağlı əmrlər mərasim iştirakçılarının diqqətinə çatdırılıb və tribuna önündən təntənəli keçid olub.

**Nəriman NƏCƏFOV**

## Beynəlxalq turizmə həsr olunmuş onlayn konfrans



*Naxçıvan Dövlət Universitetində "Beynəlxalq turizm bu gün: reallıqlar və perspektivlər" mövzusunda onlayn konfrans keçirilib.*

Universitetin rektoru, dosent Elbrus İsayev çıxışında qeyd edib ki, muxtar respublikada turizmin davamlı olaraq inkişaf etməsi və genişlənməsi bu sektoru sosial-iqtisadi tərəqqinin aparıcı sahələrindən birinə çevirib. Həyata keçirilən tədbirlərin geniş vüsət almasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın xüsusi rolu vardır. Rektor universitetdə Turizm işinin təşkili ixtisasının açılmasını muxtar respublikada bu istiqamət üzrə kadr hazırlığına töhfə kimi dəyərləndirib.

Universitetin Bələdiyyə və turizm kafedrasının dosenti Əli Cabbarov ölkədaxili və beynəlxalq turizmin növlərindən danışıb. Vurğulanıb ki, muxtar respublikanın təhlükəsiz region kimi tanınması, keçirilən beynəlxalq və yerli əhəmiyyətli tədbirlər, təşkil edilmiş infoturlar, aparılan təbliğat işləri də turistlərin sayının artmasına müsbət təsir göstərib.

Həmin kafedranın müəllimi Nigar Bababəyli bildirib ki, mövcud təbii ehtiyatlar, əlverişli iqlim şəraiti, zəngin tarixi-mədəni irs cəlbedici turizm məhsullarını çoxaltmaq üçün əsaslı zəmin yaradır.

"Anadolu" Universiteti Turizm fakültəsinin müəllimi İnci Oya Coşkun diqqətə çatdırıb ki, ən çox səyahət edilən ölkələr arasında Avropa ölkələri öz liderliyini qoruyub saxlayır. Vurğulanıb ki, ölkələrarası siyasi gərginlik, müharibələr turizmə böyük zərbə vurur. Çıxışda pandemiyanın turizm sənayesinə təsirləri, bu təsirlərin minimuma endirilməsi üçün görülən tədbirlər və turizmin mərhələli bərpa planı haqqında da məlumat verilib.

Azərbaycan Turizm və Menecment Universiteti Menecment kafedrasının müəllimi Məsumə Əliyeva qeyd edib ki, ötən dövr ərzində turizm sektorunda görülmüş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda bu sektorun inkişafı üçün münbit şərait yaradılıb, beynəlxalq turizm bazarına inteqrasiya təmin olunub və milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəldilib.

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin əməkdaşı Həsən Kərimov, Turizm və sosial mədəni servis xidməti ixtisasının II kurs magistrantı Əfsanə İbrahimova vurğulayıblar ki, Naxçıvanda turizmin bir çox növləri üzrə geniş imkanlar vardır.

**Səadət ƏLİYEVA**

## Saat Meydanı tikilir



Muxtar respublikanın ən böyük bölgəsi olan Şərur rayonunda da istehsal müəssisələri, təhsil, səhiyyə və digər qurumlar üçün binaların tikintisi, yolların və digər infrastrukturların yenilənməsi diqqət mərkəzində saxlanılır. Cari ildə də belə tədbirlər sürətlə davam etdirilir, böyük layihələr icra olunur.

Yeni quruculuq ünvanlarının sırasına Şərur şəhərinin girişində ucaldılan Saat Meydanı da qoşulub. Ümumi sahəsi 2 min 460 kvadratmetrlik bir ərazidə 10 metr hündürlükdə olacaq Saat qülləsinin inşasını "Gəmiqaya Holdinq" Şirkətlər Qrupu həyata keçirir.

Qüllədə Şərq və Qərb istiqamətlərində olmaqla, iki saat qurulacaq. Tikinti ilə paralel şəkildə ərazidə işıqlandırma sistemi quraşdırılır, su xətti çəkilir.

Layihəyə uyğun əsas işlər tam başa çatdıqdan sonra ətrafda gülkarlıq və yaşıllıq zolağı da salınacaqdır. Qüllədə son tamamlanma işləri görülür.

**Telli MƏMMƏDOVA**

*Muxtar respublika iqtisadiyyatında mühüm yerə sahib sahələrdən biri də sənayedir. Son dövrlərdə sənayeləşmə siyasətinə uyğun olaraq yeni istehsal sahələri qurulur, mövcud müəssisələrin fəaliyyətində məhsulların yeni növ və çeşidlərinin istehsalına diqqət artırılır. Sənaye məhsulları istehsalında əldə olunmuş müsbət nəticələrdən biri də son illərdə muxtar respublikada yeni inşaat materiallarının istehsalına başlanılmasıdır. Naxçıvan Muxtar Respublikasının təbii xammal yataqlarının işlənməsi hesabına istehsal olunan müxtəlif inşaat materialları daxili tələbatı ödəməklə yanaşı, xarici ölkələrə də ixrac olunur. Sement, sönmüş və sönməmiş əhəng məhsulları, astar və üzlük suvaqlar, kartonpiyer gipsləri kimi tikinti materialları sırasında məsaməli beton da son illərin daha çox ehtiyac duyulan məhsulları sırasındadır. Naxçıvan Tikinti Materialları İstehsalı Kompleksində istehsal olunan bu məhsullar həm də rəqabətqabiliyyətliliyi ilə seçilir.*




*İstehsal müəssisələrimiz*

## Naxçıvanın yerli inşaat materialı olan məsaməli betona tələbat artır

Qeyd edək ki, məsaməli beton bloklar müasir dünyada ən geniş yayılmış tikinti materialıdır. Bu məhsullar digər tikinti materiallarından möhkəmliyi, yüngüllüyü, uzunömürlülüyü, istiliyə və soyuğa davamlılığı, ekoloji cəhətdən təmizliyi, həmçinin adi əl və ya elektrik alətlərindən istifadə edilən zaman çox asanlıqla emal olunması ilə fərqlənir. Hazırda məsaməli betondan hündür və alçaqmərtəbəli binaların inşa olunmasında, xarici və daxili divarların hörülməsində, arakəsmələrin, örtüklərin və pillələrin tikilməsində istifadə olunur. Statistikaya görə, bir çox ölkələrdə məsaməli beton divar tikinti materialları işində bazarın 60 faizini tutur. İnkişaf etmiş ölkələrdə bu inşaat materialının istehsalına maraq böyükdür. Hətta ərazi və faydalı qazıntılarına görə ən böyük ölkə sayılan Rusiya məsaməli beton istehsalı həcminə görə Almaniya, Polşa və Belarusdan sonra gəlir. Bilinən odur ki, bu gün məsaməli beton blokları tikintidə əsl inqilab adlandıranlar heç də yanılmırlar.





Naxçıvan Muxtar Respublikasında məsaməli beton istehsalına 2016-cı ildən başlanılıb. 2015-ci ildə yuxarıda adıçəkilən kompleksdə bunun üçün yeni zavod tikilərək burada müasir avadanlıqlar quraşdırılıb. Bunu Naxçıvan Tikinti Materialları İstehsalı Kompleksinin direktoru Yaşar Həsənzadə bizimlə söhbətində bildirir. Qeyd edir ki, ötən dövrdə bu məhsulun istehsal həcmi tələbata uyğun olaraq artıb. Əvvəlki illərlə müqayisədə indi yerli əhali də bu inşaat materialı haqqında məlumatlıdır. Çəkisinin yüngül, yerli iqlimə dayanıqlı, eyni zamanda işi tez bir müddətdə yekunlaşdırmağa imkan verən bu cür məsaməli beton blokları almaq üçün müraciət edənlərin də sayı artır. Əvvəllər bu tikinti materialından Gürcüstan Respublikasına da göndərmişik. Hazırda isə ixrac üçün yeni bazar araşdırmaları aparırıq.

İstehsal prosesi ilə maraqlanırıq. Müəssisənin Keyfiyyətə nəzarət və məhsulun təkmilləşdirilməsi şöbəsinin müdiri Cəfər Bəylərov ilk olaraq məlumat verir ki, məhsulun istehsalında xammal kimi Kəngərli rayonunun Çalxanqala kəndi ərazisində yerləşən reolit yataqlarından istifadə olunur. Yataqlardan çıxarılan vulkanik tərkibli daşlar nəqliyyat vasitəsilə zavoda daşınır, burada üyüdülərək toz halına salınır və sönməmiş əhəng, qum, sement, su, alüminium tozu ilə qarışdırılaraq müvafiq temperaturda saxlanılır və xüsusi böyük qəliblərə boşaldılır. Sonra isə zavodda quraşdırılmış kəsmə dəzgahlarında doğranaraq qablaşdırılır. Həmçinin sifariş əsasında burada müxtəlif ölçülərdə kəsimlər də həyata keçirilir. Bunu da əlavə edim ki, artıq zavodda bu cür bloklar işlədilən zaman istifadə olunan yapışdırıcıların da istehsalına başlamışıq.




Elşən Cəfərli isə satış müdiri vəzifəsində çalışır. Bildirir ki, zavodda istehsal olunan məsaməli beton blokların hər birinin hündürlüyü 25, uzunluğu isə 60 santimetr olmaqla, 10, 15, 20, 40 santimetr qalınlıqlarda satışa göndərilir. Hazırda müəssisədə satış üçün kifayət qədər məhsul ehtiyatı var. Yeni xarici bazarların araşdırılması yaxın gələcəkdə bu yerli inşaat məhsulunu digər ölkələrə ixrac etməyə də imkan verəcək.

Müəssisədə olarkən kompleksin direktoru Yaşar Həsənzadə bizi memar Zahid Məmmədzadə ilə tanış edir. Bildirir ki, o, müəssisənin əməkdaşı olmasa da, uzun müddət Türkiyə Respublikasında, həmçinin Bakı şəhərində məsaməli beton bloklardan müxtəlif fiqurların hazırlanması işində çalışıb. Düzəltdiyi heykəl və fiqurlar isə bir çox binaların fasad hissəsində, eləcə də şəxsi yaşayış evlərinin dekorasiyalarında istifadə olunub. Hazırda Zahid Məmmədzadə müxtəlif dekorativ fiqurların hazırlanması işinə cəlb olunub ki, burada da əsas məqsəd bu cür məhsulların sərgisini təşkil etməkdir. Müsahibimizin sözlərinə görə, məsaməli beton bloklardan hazırlanan belə dekorativ məhsullar yerli bazara öz töhfəsini verəcəkdir.

*Bəli, bu gün Naxçıvan Tikinti Materialları İstehsalı Kompleksində istehsal olunan inşaat materialları keyfiyyətinə görə xarici analoqlarından fərqlənir. Buna görədir ki, əhali bu məhsulları almaq üçün yerli istehsala üstünlük verir. Eyni zamanda yerli inşaat materiallarının daxili bazarda həcminin artması idxala öz təsirini göstərir. Nəticədə, əvvəllər belə məhsulların daxili bazara gətirilməsi üçün xaricə vəsait çıxardısa, indi yerli məhsulların ixracı daxilə valyuta axınını təmin edir. Ümid edirik ki, gələcəkdə Naxçıvanın lojistik imkanlarının genişlənməsi yerli məhsulların ixracına da böyük töhfə olacaq.*

**Səbuhi HƏSƏNOV**

## Payızlıq taxıl əkininə hazırlıq işləri gedir

Hərtərəfli dövlət qayğısı və yeni suvarma sistemlərinin quraşdırılması nəticəsində muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Şahbuz rayonunda da taxılçılığa maraq ildən-ilə artır. Bunun ifadəsidir ki, cari ildə muxtar respublikada taxıl sahələrindən 115649 ton məhsul tədarük edilib ki, əldə olunan məhsulun 4314 tonu və ya 3,7 faizi Şahbuz rayonunun payına düşüb.



Bölgənin ailə təsərrüfatçıları və torpaq mülkiyyətçiləri sentyabr ayının əvvəllərindən payız şumuna başlayıblar. “Naxçıvan Aqroservis” Açıq Səhmdar Cəmiyyətinin Şahbuz rayon bazasına, fiziki şəxslərə və ailə təsərrüfatçılarına məxsus 15-ə yaxın texnikanın gücündən istifadə olunmaqla, artıq 400 hektara yaxın sahədə şum qaldırılıb. Şum, əsasən, Şahbuz şəhəri ərazisindəki torpaq sahələrində, Şahbuzkənddə, Sələsüz, Türkeş, Mərəlik, Badamlı və digər kəndlərdə aparılır.

Ötən il Türkeş kəndində 350 hektar, bu il isə Sələsüz, Mərəlik və Türkeş kəndlərinin digər torpaq sahələrində 270 hektar sahədə qapalı suvarma sistemlərinin qurulması torpaq mülkiyyətçilərinin əkinlərə marağını artırıb. Belə ki, ötən il 1563 hektar sahədə taxıl əkinləri aparan torpaq mülkiyyətçiləri bu il taxıl sahələrini 1700 hektara çatdırmağı planlaşdırırlar.

Qeyd edək ki, altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında Ali Məclisin Sədri qapalı suvarma şəbəkələrinin qurulmasının payız əkini mövsümünə qədər başa çatdırılması barədə tapşırıqlar verib. Həmin tapşırıqların icrası istiqamətində görülən tədbirlərin davamı olaraq hazırda rayonun Külüs kəndinin Düz massivində 400 hektara yaxın sahədə nasos stansiyası inşa olunur ki, bu stansiya vasitəsilə həmin kənddə də uzun illərdir, əkilməyən torpaq sahəsində suvarma suyuna olan tələbat yaxşılaşacaq.

**Hicran ƏLİYEVA**

*O bizim uşaqlıq xatirələrimizdəki həmin zəhmətkeş idi. Bir məhəllədə yaşadığımızdan deməK olar ki, hər gün qarşılaşardıq. Xüsusilə də axşamüstü bir də görərdik ki, çiynində bağban alətləri olan Əbdül dayı oğlanları ilə birlikdə gəlir. Ömrünü torpağa bağladığı üçün bildirir ki, boş vaxtı yoxdur. Ona görə də, iki kəlmə salam-sağolla kifayətlənirdik. Lakin indi jurnalist-müsahib timsalında Əbdül dayı ilə görüşüb torpaqla təmasda keçmiş illərinin zəhmətindən danışmaq qərarına gəlmişik.*

*Ailə təsərrüfatlarımız*

## Çətin zəhmətin şirin bəhrələri

Bildiyiniz kimi, Ordubadın bağçılıq, meyvəçilik tarixi çox qədim zamanlara söykənir. Meyvələri, meyvə bağları ilə məşhur olan bu qədim torpaqda həmin ənənə bu gün də davam etdirilir. Əbdül dayı da Ordubadda bağçılıq sahəsini inkişaf etdirən insanlardandır. Təsərrüfatında müxtəlif növdə ağaclar yetişdirir, halal zəhmətinin bəhrəsini də götürür.

Yerlipərəstlik edib xoş ovqatla verdiyim sualla söhbətə başlayıram: “Əbdül dayı, sizcə, Ordubad meyvələrinin dadının digərlərindən fərqli, daha dadlı olmasının səbəbi nədir?” Qeyri-ixtiyari qaçan dodaqlara baxıb düşündüm ki, deyəsən, sual seçimim uğurlu alındı. Söz müsahibimizindir:

– Deyirlər ki, çətin zəhmətin şirin də bəhrəsi olur. Ordubad bölgəsinin torpağı olduqca mürəkkəb quruluşa malikdir. Bu torpaqlardan bol məhsul toplamaq üçün ona gözün kimi baxmalı, üzərində daha çox əziyyət çəkməlisən. Elə buna görə də o qədər zəhmətlə əldə olunan məhsul digərlərindən daha ləzzətli olur. Təbii ki, torpaqdan dördəlli yapışan, ağaclarının nazıyla oynayan bağban qənaətlərində haqlı idi. Bununla yanaşı, torpağın tərkibindən tutmuş regionun iqlimi, bağbanın ağaclara necə qulluq etməsi kimi digər səbəblər də var.

Ordubadın müdafiəsini “öz öhdəliyinə götürmüş” bir dağ var qarşımızda – Dostu dağı. Əbdül dayı bu dağın rayonu əlinin içi kimi izləyən tərəfində oğlanları ilə birlikdə bir bağ salıb. Deyir ki, bağı saldığı vaxtdan bu günə kimi sınaq üçün bir çox ağaclar əkib, lakin 20 ilə yaxın təcrübə nəticəsində buranın badam, püstə, əncir və üzüm üçün əvəzsiz yer olduğu qənaətinə gəlib. Bəli, su məsələsində çətinlik çəkdiyi üçün digər ağacların əkinində bura əlverişli yer hesab olunmayıb. Deyilənə görə, elə vaxtilə də bu torpaqlarda ucsuz-bucaqsız üzüm bağları varmış. Sonradan ötən əsrin 90-cı illərinin tələtümləri bu üzümlüyə də təsirsiz ötüşməyib və nəticədə, iqtisadi cəhətdən əhəmiyyətli olan bağ düzəngaha çevrilib. Əbdül dayı isə “bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar” deyimindən yola çıxaraq həmin düzəngahda bağ salmaq üçün bütün çətinlikləri dəf etməyin yollarını axtarmağa başlayıb. Bu yüksəklikdə bir göl tikib və müxtəlif yollarla suvarma işi aparıb. Belə deyək ki, çox çətinliklə. Elə bu çətinliyi görüb “niyə məhz bu işi seçmisiniz?” – deyə soruşuruq:



– Ötən əsrin 90-cı illəri idi. Ölkəmizin müəyyən mənada çətinlik çəkdiyi dövrdəydik. Hərə bir yolla evinə çörək qazanırdı. Bir çox adam isə alqı-satqı işlərinə qoşulmuşdu. Mən də düşündüm ki, torpaq zəhməti heç vaxt itirmir. Həm də əlimdə olan imkanları nəzərə alıb, “xeyirlisi” deyib, bu istiqamətə yönəldim. Bu sahə ilə bağlı çoxlu kitablar oxudum, hər yolla maariflənməyə çalışdım, çox şey də öyrəndim. Lakin istənilən peşədə təcrübə önəmlidir, bu sahədə isə xüsusilə. Zamanla təcrübələr nəticəsində çox şey öyrəndim, necə deyərlər, müəyyən mənada bu işin adamı oldum. Öyrəndim ki, əncir, üzüm kimi bitkilər mütləq yazda əkilməlidir, onlar arasında ən azı 5 metr məsafə olmalıdır və sair. Düzdür, təsərrüfata başladığım ilk illərdə gəlirimi bu işi genişləndirməyə xərclədiyim üçün, demək olar ki, ancaq evi birtəhər dolandıracaq qədər qazanırdım. Lakin sonralar gəlirim yaxşı oldu.

Müsahibimiz, özünün də dediyi kimi, zamanla qazandığı təcrübələr sayəsində artıq bu işin peşəkarına çevrilib, demək olar ki, bəzi kiçik məsələlər istisna olmaqla, təsərrüfatındakı əksər problemi özü həll edir. Elə söhbətinə də calaqetməni canlı şəkildə göstərərək davam edir:

– Calaqsız çox az meyvə ağacı əkilir ki, onlardan biri də heyvadır. Digər ağaclar üçün isə o, mütləqdir. Payız və yaz aylarında isə budama işləri aparırıq. Meyvəverən budaqlar tez quruduğu üçün yeni budaqların inkişafını təmin etmək məqsədilə bu proses ən azı 2 ildən bir təkrar olunmalıdır. Lazımi qulluğu göstərsək də, bəzən ziyanverici həşəratlar məhsula çox zərər yetirir. Hətta dərmanla belə, məhv edə bilmədiyimiz ziyanvericilər var.

Onu da qeyd edim ki, ordubadlı bağbanın tək şikayəti ziyanvericilərdən deyildi. O deyir ki, məni məhsulun zay olması ilə yanaşı, incidən, gələcək üçün düşündürən bu işi öyrənmək istəyən gənclərimizin az olmasıdır. Əgər sənin mirasını qoyub gedəcəyin, onu xeyirli yerlərə xərcləyəcək və sənin qədər qoruyacaq biri yoxdursa, insan niyə bu qədər əkib-biçdiyini, qurub-yaratdığını düşünür özözünə. Bağ işi də belədir. Düzü, olur ki, kimlər isə calaqetməni və sairəni öyrənmək istəyir, lakin onlar da peşəkar deyil, həvəskar kimi maraq göstərirlər. Dünyanı tutub qalan deyilik, bizi də əvəz edən kimlərsə olmalıdır. Təcrübəli bağban əli ilə sırayla əkilmiş iynəyarpaqlıları göstərib söhbətinə davam edir:

– Artıq yaşlanıram, bəzən də təsərrüfata, bu qədər yol gedib-gəlməyə gücüm çatmır, amma bu ağacları görürsənmi, Tural öz əlləri ilə əkib bunları. Bəlkə də, bu bağın hər qarışında onun xatirələri, əkdiyi əmanətləri olmasa, mən bura gedib-gəlməyə, bu ağaclara qulluq etməyə bu qədər güc tapa bilməzdim özümdə...

*Bəli, Əbdül dayı zəhmətkeş bağban olmaqla yanaşı, həm də şəhid atasıdır. 2017-ci il fevralın 24-dən 25-nə keçən gecə Qarabağda düşmənin törətdiyi irimiqyaslı təxribatın qarşısını alarkən şəhid olan, torpaq üçün sinəsini sipər edən Azərbaycan Ordusunun zabiti Tural Haşımlının atası. Şəhidlik də təsadüfən olmur. Bunun üçün torpağı sevmək, onun dəyərini bilmək gərəkdir. Demək ki, Əbdül dayı hər gün iki oğlunun əlindən tutub aparmaqla torpağı sevdirməyə çalışırmış gələcək varislərinə. Gözünü açıb torpağa bulaşmış bir cüt qabarlı əl görən, Vətənin torpağa əmanət etdiyi, özünün də torpaqda əmanəti olan Tural Haşımlını böyütdüyü üçün mən də böyük hörmətlə əllərini sıxıb sağollaşdım Əbdül dayı ilə. Vətənə sevgin torpaq qədər böyük, məhsulun da bir o qədər bol olsun, bağban!*

**Fatma BABAYEVA**

*Muxtar respublika səhiyyəsinin inkişafında özünəməxsus xidmətlər göstərmiş Əqil Mehdiyevin bu il anadan olmasının 100 illiyi tamam olur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2020-ci il sentyabrın 17-də bununla bağlı Sərəncam imzalayıb. Sərəncamda deyilir: “Ömrünün 50 ildən çoxunu səhiyyə təşkilatçısı və həkim kimi muxtar respublika səhiyyəsinin inkişafına həsr edən Əqil Mehdiyev Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri vəzifəsində səmərəli fəaliyyət göstərmişdir. Əqil Mehdiyev muxtar respublikanın ictimai və sosial həyatında da yaxından iştirak etmiş, birinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilmiş, Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədri olmuşdur. Əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilən Əqil Mehdiyev Azərbaycan Respublikasının “Əməkdar həkimi” fəxri adına layiq görülmüş, “Şöhrət” və “İstiqlal” ordenləri ilə təltif edilmişdir”.*



## Əqil Mehdiyev – 100

# Xatirələrdə yaşayan tanınmış səhiyyə xadimi

Həkim və ictimai xadim kimi böyük nüfuza sahib olan Əqil Mehdiyev onu tanıyanların xatirəsində bu gün də yaşayır. Bakı şəhərində qalan oğlu Səftər Mehdiyevlə əlaqə saxlayaraq atası barədə ətraflı söhbətləşdik. Deyir ki, 1920-ci ildə Naxçıvan qəzasının Nehrəm kəndində dünyaya göz açan Əqil həkimi daha çox “Əqil müəllim” deyə çağırıblar. Ona görə ki, bir müddət pedaqoji fəaliyyətlə məşğul olub, müxtəlif illərdə Ərəzin və Nehrəm məktəblərində işləyib. Altıncı sinfə qədər Nehrəm məktəbində oxuyub, sonra Bakı şəhərində yaşayan yaxın qohumlarının təkidi ilə ora köçərək təhsilini 18 nömrəli orta məktəbdə davam etdirib. Burada ona nakam şairimiz Mikayıl Müşfiq dərs deyib. Unudulmaz şair atamı çox vaxt “Aqil” deyə çağırarmış. Atam 1937-ci ildə Naxçıvana qayıdıb. Nehrəm məktəbində X sinif olmadığı üçün Naxçıvan şəhərinə gedib, orta təhsilini 1 nömrəli məktəbdə başa vurub.

Həkim olmaq Əqil Mehdiyevin ən böyük arzusu imiş. 1940-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olsa da, İkinci Dünya müharibəsi onun planlarını pozur, təhsilini başa vura bilmir, arzusu-diləyi yarımçıq qalır. O, müharibə dövründə yaranmış böyük zərurətə görə kənd məktəbində müəllim işləyib. 1941-ci ildə Ərəzin, bir il sonra isə Nehrəm kənd məktəbinə direktor təyin olunub. Tanınmış ağsaqqal Tofiq Abutalıbov o illəri belə xatırlayır: “İndi böyük ədib Cəlil Məmmədquluzadənin Nehrəmdəki Xatirə Muzeyinin yerində köhnə bir məktəb var idi. Həmin məktəbdə Əqil müəllim mənə də dərs deyib. O, çox tələbkar və olduqca dəqiq pedaqoq, yüksək təşkilatçılıq qabiliyyətinə



malik insan idi. Həmin dövrdə Nehrəmdə ailələrlə görüşlər keçirər, qızların təhsilə cəlb olunması ilə bağlı söhbətlər aparardı. O, Nehrəmdə böyük nüfuza sahib idi. Hər hansı bir mübahisəli məsələdə mütləq Əqil müəllimin tövsiyəsinə, məsləhətinə əməl olunardı”.

Əqil Mehdiyev 1953-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə qəbul olur. Artıq həmin vaxt ailə həyatı da qurmuşdu və 34 yaşı var idi. Oğlunun xatirələrindən belə məlum olur ki, atası tibb təhsili almaq üçün Bakıya gedəndə yaxın dostu Məmməddən o vaxtın pulu ilə 700 manat borc alıb. Bəzən onu qınayırmışlar ki, beş nəfərlik ailəni Nehrəmdə qoyub həkim olmaq üçün şəhərbəşəhər gəzir. Amma Əqil Mehdiyev böyük bir mübarizə, əzm, iradə nümayiş etdirərək arzularının arxasınca Bakı şəhərinə oxumağa gedir.

91 il ömür sürən, 10 uşaq atası olan görkəmli səhiyyə xadiminin kürəkəni, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi Adil Məmmədov deyir ki, altıillik tələbəlik həyatı başa çatdıqdan sonra Əqil Mehdiyev Qahab kənd ambulatoriyasında və Nehrəm Kənd Xəstəxanasında baş həkim işləyib. Həmin vaxt görkəmli ədib Cəlil Məmmədquluzadənin qızı Münəvvər Məmmədquluzadənin də işlədiyi bu tibb ocağında Əqil həkim böyük təcrübə qazanır. Tezliklə onun təşkilatçılığına görə xəstəxanada çarpayıların sayı 50-yə çatdırılır, stomatoloq və pediatr ştatları alınır, xidməti avtomobil verilir. Nehrəm Kənd Xəstəxanası 1960-1973-cü illərdə baş həkimin əməyi, nüfuzu sayəsində ən nümunəvi, təmiz səhiyyə ocağına çevrilir.

Qeyd edək ki, yüksək təşkilatçılıq qabiliyyətinə görə, Əqil həkim 1973-cü ildə indiki Naxçıvan Muxtar Respublika Xəstəxanasına baş həkim təyin olunur və 11 il burada çalışır. Azərbaycan Respublikasının Əməkdar həkimi



İbrahim Ağayev deyir ki, həmin vaxt mən uşaq xəstəxanasında çalışırdım. Əqil həkimin baş həkim işlədiyi illərdə bir çox yeniliklərə imza atmışdı. Naxçıvanda ilk dəfə Naftalan nefti ilə Fizioterapevtik müalicə şöbəsinin təşkil edilməsi təşəbbüsü ona məxsusdur. Bundan başqa, xəstəxanadakı cərrahların vahid şöbədə cəmləşməsi ideyası ilə çıxış etmişdi. Bu illər ərzində onun bacarığı və səyi sayəsində qədim diyarın ən böyük səhiyyə ocağında əsaslı islahatlar aparıldı. 1984-cü ilin iyul ayında Əqil Mehdiyev heç bir səbəb olmadan işdən uzaqlaşdırıldı və yenidən Nehrəm xəstəxanasına adi həkim kimi işə göndərildi. Bu haqsızlıq Əqil həkimi dərindən sarsıtmışdı. Amma müstəqillik illərində həqiqət, haqq öz yerini tapdı. Naxçıvan səhiyyəsi üçün mühüm işlərə imza atan Əqil Mehdiyev 1995-ci ildə muxtar respublikanın Səhiyyə naziri vəzifəsinə təyin olundu və 9 il səmərəli fəaliyyət göstərdi. O vaxt nazir kimi uşaq xəstəxanasına tez-tez gələr, həkimlərin qayğıları ilə maraqlanardı. Şəxsən mən onun məsləhəti və göstərişi ilə Minsk şəhərinə təkmilləşdirmə kursuna göndərilmişəm.

Əqil həkimin əməyinə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən hər zaman yüksək qiymət verilib. Dahi şəxsiyyətin müxtəlif vaxtlarda imzaladığı fərmanlara əsasən o, “Şöhrət” və “İstiqlal” ordenləri ilə təltif olunub. Səhiyyə işçilərinin əməyinin hər zaman yüksək qiymətləndirilməsi ənənəsi muxtar respublikamızda tanınmış həkim və ictimai xadim Əqil Mehdiyevin 100 illik yubileyinin geniş şəkildə qeyd olunması ilə davam etdirilir. Bununla bağlı oğlu Səftər deyir ki, atamın anadan olmasının 100 illik yubileyinin qeyd olunması ilə bağlı imzalanan sərəncam müstəqil dövlətimiz tərəfindən Əqil Mehdiyevin əməyinə verilən yüksək qiymətin, ümumilikdə, səhiyyəmizin inkişafına, zəngin ənənələrinin qorunub yaşadılmasına və təbliğinə dövlət qayğısının daha bir ifadəsidir. Buna görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova ailəmiz adından dərin minnətdarlığımı bildirirəm. Bu mühüm dövlət sənədi hər birimizi ürəkdən sevindirdi. Bir daha şahid olduq ki, Əqil Mehdiyevin ictimai xadim və həkim kimi xidmətləri heç vaxt unudulmur.

*Muxtar respublikamızda tibb kadrlarının yetişməsində böyük əməyi olan səhiyyə təşkilatçısı, el ağsaqqalı Əqil Mehdiyevin həyatı gənc həkimlər üçün əsl örnəkdir. Onun əziz xatirəsi muxtar respublikanın səhiyyə tarixində həmişə hörmətlə anılacaqdır. Elə Ali Məclis Sədrinin imzaladığı sərəncam, bu mühüm dövlət sənədinin icrası istiqamətində həyata keçiriləcək tədbirlər nüfuzlu el ağsaqqalının, fədakar həkimin, ictimai xadimin həyat və fəaliyyətinin öyrənilməsi və təbliği istiqamətində mühüm rol oynayacaq.*

**Muxtar RZAZADƏ**
**“Şərqin səhəri” qəzetinin redaktoru**

# Yeni elektron tədris vəsaiti ümumtəhsil müəssisələrində şahmatın tədrisinə öz töhfəsini verəcəkdir



***Muxtar respublikada məktəblilərin əqli və məntiqi düşüncə qabiliyyətinin formalaşmasında xüsusi əhəmiyyəti olan şahmatın kütləviliyinin artırılmasına və bu sahənin inkişafına yüksək qayğı göstərilir. Şahmatın maddi-texniki bazası möhkəmləndirilir, məktəblərdə şahmat fənninin tədrisi diqqətdə saxlanılır. Uşaq və gənclərin bu idman növünə marağının artırılması və bu istiqamətdə inkişaf etmələri yönündə mühüm addımlar atılır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin şahmata olan diqqəti nəticəsində 2002-ci ildə Naxçıvan Şahmat Federasiyasının yaradılması ilə muxtar respublikada şahmata baxış tərzi dəyişmiş, federasiyanın düzgün seçilmiş inkişaf strategiyası nəticəsində uşaqların bu idman növünə marağı artmış, yeni gənc istedadların axtarışı yönündə zəruri işlər görülmüşdür. Bu gün muxtar respublikada məktəblilər arasında müxtəlif kateqoriyalar üzrə şəhər və rayon birincilikləri ilə yanaşı, muxtar respublika ərazisində mütəmadi olaraq tempo yarışları, müxtəlif beynəlxalq yarışlar keçirilir, Naxçıvan şahmat üzrə ölkə və beynəlxalq səviyyəli yarışlara ev sahibliyi edir. Naxçıvan şəhərində Şahmat Mərkəzi, rayon mərkəzlərində yeni şahmat məktəblərinin tikilib istifadəyə verilməsi, məktəblərdə şahmat siniflərinin lazımi avadanlıqlarla təchiz edilməsi, şahmatın tədrisi üçün dərsliklərin çap olunması, eləcə də müəllimlərin bilik və bacarıqlarının inkişafı istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada böyüməkdə olan gənc şahmatçılar müxtəlif səviyyəli yarışlarda layiqli yerlər tutur.

Bunlarla yanaşı, şahmatı tədris edən müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, təhsil müəssisələrinin bacarıqlı və bilikli müəllimlərlə təmin olunması diqqətdə saxlanılıb, ötən müddət ərzində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən sertifikasiya imtahanlarında uğurlu nəticə göstərən 505 müəllimə ümumtəhsil məktəblərində şahmat fənnini tədris etməsinə icazə hüququ verən sertifikat təqdim olunub.

Muxtar respublikada şahmatın inkişafında böyük rol oynayan Naxçıvan Şahmat Federasiyası ümumtəhsil məktəblərinin şahmat fənninə dair dərslik, dərs vəsaiti və digər tədris-metodik ədəbiyyatlara olan ehtiyacının qarşılanmasına yaxından köməklik göstərir. Ötən müddət ərzində şahmatın yüksək səviyyədə tədrisini təmin etmək üçün federasiya tərəfindən şahmatın əsaslarının şagirdlərə öyrədilməsində müəllimlərə yaxın köməkçi olan “Pillə-pillə” kitabı və şagirdlərin şahmata olan marağını, artan tələbatı nəzərə alaraq dərslik kimi nəzərdə tutulan “Debütdə buraxılmış səhvlərə aid 1000 oyun” kitabı nəşr olunaraq ümumtəhsil məktəblərinə verilib. Şahmat Federasiyası tərəfindən ümumtəhsil və şahmat məktəblərinə hədiyyə olunan kitablar mövcud qaydalara uyğun şəkildə məktəblərin fonduna daxil edilib və səmərəli istifadəsi Təhsil Nazirliyi tərəfindən diqqətdə saxlanılır.

Bu yaxınlarda isə federasiya tərəfindən Naxçıvan Muxtar Respublikası ümumtəhsil məktəblərində tədris etmək üçün “Şahmat dərsləri” adlı elektron dərslik hazırlanaraq məktəblərə təqdim edilib. Elektron dərslikdə şahmatın sirlərini öyrədən 32 dərs yerləşdirilib ki, bu da şahmatın tədrisini daha da asanlaşdırır. Şahmatın sirlərindən və əsaslarından ibarət olan elektron dərslik şahmatın tədrisində həm müəllimlər, həm də şagirdlər üçün dəyərli mənbə olmaqla, bu fənnin tədrisi səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərəcəkdir.

Bu gün muxtar respublikanın təhsil ocaqlarında elektron lövhəli siniflərin, kompüter siniflərinin fasiləsiz internetlə təmin olunması imkan verir ki, şahmatın tədrisi üçün nəzərdə tutulmuş elektron dərsliklərdən rahat istifadə etməklə həm müəllimlər, həm də şagirdlər öz bilik və bacarıqlarını inkişaf etdirə bilsinlər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Təsviri incəsənət və rəngkarlıq ixtisası tələbələrinə “Hami təşkilatların vacibliyi və müsbət təsiri” mövzusunda onlayn seminar-diskussiya keçirilib.*

# Onlayn seminar-diskussiya

Seminarı giriş sözü ilə Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev açaraq keçirilən tədbirlərin vacibliyini qeyd edib. Rəssam tələbələrin gələcək təcrübələrinin möhkəmlənməsinə birgə əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Hami təşkilat olaraq Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Əməkdar rəssam Ülviyyə Həmzəyeva çıxışında bildirib ki, muxtar respublikamızda son illərdə təhsilin davamlı inkişafını təmin edən sərəncamların qəbul edilməsi, güclü təhsil infrastrukturunun, maddi-texniki bazanın yaradılması, yüksəkixtisaslı kadr hazırlığını təmin edən Dövlət proqramlarının, layihələrin uğurlu tətbiqi təhsilin beynəlxalq standartlar səviyyəsinə uyğunlaşmasına təkan verir. Bu həmçinin gənc rəssamların inkişafına da güclü təsir göstərməkdədir. Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Təsviri incəsənət və rəngkarlıq ixtisası kafedrasının tələbələri ilə birgə 2015-ci ildən bu günədək 70-ə yaxın tədbir keçirilib. Bu tədbirləri, əsasən, ustad dərslər, Bəhruz Kəngərli adına Sərgi Salonunda keçirilən müxtəlif



səpkili sərgi-müsabiqələr, gənc rəssamlar üçün təşkil olunan festivallar və tələbələrin fərdi yaradıcılıq sərgiləri təşkil edib.

Ülviyyə Həmzəyeva Təsviri incəsənət və rəngkarlıq kafedrasının müəllim və tələbələrinin suallarını cavablandırıb.

Onlayn tədbirdə gələcək planlar, startap layihələr haqqında geniş diskussiya aparılıb.

**Xəbərlər şöbəsi**

# Monitorinqlər keçirilib

*Bu gün ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bütün sahələrdə olduğu kimi, uşaq hüquqlarının qorunması istiqamətində də möhkəm qanunvericilik bazası yaradılıb, ardıcıl və məqsədyönlü tədbirlər reallaşdırılıb.*

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi öz fəaliyyət istiqamətinə uyğun olaraq bütün kateqoriyadan olan uşaqlar kimi hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların da, hüquq və mənafelərinin qorunması istiqamətində müvafiq işlər həyata keçirir. Aparılan işlərin davamı olaraq ilin əvvəlində təsdiq edilmiş komitənin və Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın 2020-ci il üçün iş planına uyğun olaraq komissiyanın ekspert qrupu tərəfindən 2020-ci ilin 18 və 23 sentyabr tarixlərində Şərur rayonu və Naxçıvan şəhəri üzrə, ümumilikdə, 10 hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşağın yaşadığı evlərdə monitorinq keçirilib.

Monitorinqlərin məqsədi uşaqların hüquq və mənafelərinin qorunması, onların hüquqlarının pozulmasına səbəb ola biləcək halların qarşısının alınmasından ibarətdir. Bu zaman uşaqların sağlamlığı, eləcə də mənzil və yaşayış, tərbiyə, təhsil şəraitləri, sosial vəziyyətləri yoxlanılıb, qəyyum və himayədarları ilə geniş söhbətlər aparılıb, hüquq pozulması hallarına rast gəlinməyib.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiya tərəfindən müvafiq işlərin həyata keçirilməsi bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Naxçıvanda ilk dəfə olaraq "C" kateqoriyalı məşqçi kursu keçirilir



### *Futbol Federasiyası bu ənənəni davam etdirəcək*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində bu gün Naxçıvanda idman ən yüksək səviyyədə inkişaf etməkdədir. "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilən müşavirələrdə və "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nda bu sahənin inkişafı ilə bağlı qarşıya konkret məqsədlər qoyulub. Dövlət proqramına uyğun olaraq muxtar respublikaya təcrübəli məşqçilərin dəvət edilməsi, məşqçilərə təlimlərin, idmançılara nümunəvi dərslərin təşkili Gənclər və İdman Nazirliyi ilə aidiyyəti qurumların diqqət mərkəzindədir. Son olaraq Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə "C" kateqoriyalı məşqçilik kursunun keçirilməsi bunun bariz nümunəsidir. Şərur Olimpiya İdman Kompleksində AFFA-nın Maarifləndirmə şöbəsinin rəhbəri Aslan Kərimov, təlimatçılardan Osman Rəhimov və İlham Əzizzadənin iştirakı ilə təşkil olunan kursda muxtar respublikanın müxtəlif bölgələrindən 15 məşqçi iştirak edir.

### *Hədəflərinə doğru irəliləyən gənclər*

Bu kurs digərlərindən öz missiyasına, əhatə dairəsinə görə çox fərqlənir. Ümumiyyətlə, futbol sahəsində çalışanların vəzifəsi, məsuliyyəti daha ağır olur. Onlar Azərbaycan futbolunun inkişafı, gələcəyi naminə karyeralarını





daim təkmilləşdirən şəxslərdir. Əsas məqsədləri istedadlı kadrlar hazırlayıb futbolumuza öz töhfələrini verməkdir. Futbol mütəxəssislərinin dediyi kimi: "Məşqçi olmur, məşqçi doğulur". Bu şərəfli missiyanı üzərlərinə götürən məşqçilərlə söhbətləşmək, kursun iş prinsipləri ilə maraqlanmaq üçün Şərur rayonuna yollandıq.

Müasir standartlara cavab verən Şərur Olimpiya İdman Kompleksində bu yola yeni başlayan məşqçilər üçün hər bir şərait yaradılıb. Kurs haqqında məlumat verən Naxçıvan Futbol Federasiyasının sədr müavini Sakit Rzayev bildirdi ki, əsas məqsəd muxtar respublika futbolu üçün yüksəkixtisaslı, təcrübəli kadrlar hazırlamaqdır: "15 nəfərin iştirak etdiyi kursa AFFA-nın Maarifləndirmə şöbəsinin müdiri Aslan Kərimov rəhbərlik edir. Məşqçilərin bilik və bacarıqlarının artırılması, uşaq futbolunda lisenziyalı məşqçilərin fəaliyyətinə zəmin yaradılması məqsədilə keçilən kurs Avropanın ali futbol qurumu – UEFA tərəfindən təyin edilən plan, proqrama uyğun olaraq istiqamətlənib. Mərhələlərlə davam edəcək kursun ilk günlərində mütəxəssislər məşqçiliklə bağlı nəzəri biliklərini bölüşdülər. Mövzuya uyğun məsələlərlə bağlı sual-cavab, yazılı tapşırıqlar aparıldı. Eyni zamanda məşqçilər tərəfindən iştirakçılara lövhələr vasitəsilə mövzuların detalları izah edildi. "C" kateqoriyalı məşqçi kursu Naxçıvanda ilk dəfə təşkil olunur və buna maraq hədsizdir. Federasiya tərəfindən belə kurslar mütəmadi şəkildə keçiriləcək və muxtar respublikanın şəhər və rayonlarında yaşayan təcrübəli futbol adamları kurslara dəvət olunacaq".

### *Kursda bir gün...*

Günün ilk yarısında iştirakçılar Şərur Olimpiya İdman Kompleksinin stadionunda praktik məşqdə iştirak etdilər. Öncə kurs iştirakçılarına məşqin planlaması, məşq prosesi zamanı onların nə etməli olduqları izah edildi. Günün planına uyğun olaraq iki mövzuda sınaq məşqləri keçirildi – topun sinə ilə qəbulu və aparılması, ayağın üstü ilə qapıya zərbələr. Həmçinin sınaq məşqində məşqçilərin meydanda davranışı, məşqin istiqamətləndirilməsi, məşqçinin komandaya rəhbərliyi və vəzifələri ilə əlaqədar bəzi nüanslar diqqətə çatdırıldı.

Günün ikinci yarısında isə iştirakçılara futbolun texniki tərəfləri, eyni zamanda məşqçinin rolu haqqında zəruri məlumatlar verildi. Hər bir detalına kimi gənc məşqçiləri nəzəri məşğələlərdə məlumatlandıran mütəxəssislərin iştirakçılar tərəfindən verilən sualları tam izahı ilə onlara çatdırması da diqqətdən yayınmadı.

### *Təlim-məşq bazasının tikintisi böyük bir addımdır*

Kompleksin mehmanxanasında məskunlaşan məşqçilər gün ərzində 2 dəfə nəzəri və praktik məşğələlərdə iştirak edirlər. Keçirilən məşqlər barədə AFFA-nın Maarifləndirmə şöbəsinin rəhbəri ***Aslan Kərimov***un fikirlərini öyrəndik:



"Futbolun inkişafı üçün bütün bölgələrdə işlər görülür. Naxçıvan Futbol Federasiyasının dəvəti ilə Azərbaycan Futbol Federasiyaları Assosiasiyası tərəfindən muxtar respublikada da məşqçi kurslarına start verilib. Ümumiyyətlə, futbolun inkişafı 3 istiqamətdə gedir – infrastruktur, kütləvilik və maarifləndirmə. Yaxşı futbolçular yetişdirmək üçün yaxşı məşqçilər olmalıdır. "C" kateqoriyalı məşqçi kursları indiyə kimi hər zaman Bakı şəhərində təşkil olunurdu. Bu ildən artıq bütün regionlarda keçiriləcək. Sentyabr ayının 21-dən etibarən ilk dəfə olaraq Naxçıvanda bu kurs təşkil edildi. Burada kateqoriya kursunu keçirmək üçün hər cür şərait var. Düşünürəm ki, belə bir şəraitdə işimiz yaxşı gedəcək və qısa vaxt kəsiyində inkişaf özünü göstərəcək".

Aslan Kərimov onu da bildirdi ki, kurs, ümumilikdə, 3 moduldan ibarət olacaq. İlk modulda nəzəri baxımdan interaktiv bilgilər paylaşılacaq. UEFA-nın da təkidi ilə öyrətmə prosesi yalnız reallığa əsaslanmalıdır. Biz də bu üsulla çalışırıq. Bu nə deməkdir? Məşqçilər, əslində, işlədiyi yerdə öyrənməlidir. Yəni yalnız auditoriyada, zalda danışmaqla heç nə bitmir. Bizim də ilk modulumuz nəzəriyyəni meydanda tətbiq etməkdir. Naxçıvanda kursun Şərurda təşkil olunması daha əlverişlidir. Çünki qaldığımız və nəzəriyyə keçdiyimiz kompleksin stadionu var – orada danışırıq, burada isə öyrətdiklərimizi praktik olaraq həyata keçiririk. İkinci modulda isə iştirakçılar özləri sərbəst şəkildə aşağı yaş qrupları – 10-12 yaşlılarla məşq keçməyə çalışacaqlar. Keçirilən məşqlərdə biz də onlara hər hansı bir məsələdə köməklik göstərəcəyik. Son modulda isə iştirakçılardan – gənc məşqçilərdən praktik, şifahi və yazılı imtahan götürüləcək. Yekunda imtahanda uğur qazanan iştirakçılar "C" kateqoriyası alacaqlar.

AFFA-nın Maarifləndirmə şöbəsinin rəhbəri ümid edir ki, kursda iştirak edənlərin əksəriyyəti kateqoriya alacaq. Lakin əsas məsələ kursda iştirak etmək və təcrübə qazanmaqdır. Lisenziya oldu və ya olmadı, əsas məqsəd məşqçilərin biliklərini təkmilləşdirməkdir. Muxtar respublikanın bölgələrində istedadlı uşaqlar çoxdur və məqsəd kursda iştirak edən gənc məşqçilərin onları düzgün yönləndirməsidir. O deyir: "Bu, Naxçıvana ikinci səfərimdir. İlk dəfə gələrkən bura haqqında məndə tam başqa təəssürat yaranmışdı. İndi isə hər şey fərqlidir. Gəldiyimiz gün Uzunoba gölü ətrafında yeni inşa edilən təlim-məşq bazasında olduq. Bu, böyük bir addımdır. İnfrastrukturun tikintisi hər şeydən önəmlidir. Çünki şərait olmayan yerdə inkişafdan, kütləvilikdən danışa bilmərik. Yalnız bundan sonra məşqçilərin maarifləndirilməsinə önəm verilməlidir ki, artıq Naxçıvan Futbol Federasiyası AFFA ilə birgə bu istiqamətdə işlər görür. Gələcəkdə belə bir planımız var ki, lisenziyalar artıq Naxçıvan Muxtar Respublikasında verilsin. Planımızda Bakı şəhərində təlimatçıların kursunu təşkil etmək və o kursa Naxçıvan nümayəndəsini də dəvət etmək var. Həmin kursda, seminarda iştirak edənlərə sertifikat təqdim edək. Daha sonra onlar artıq Naxçıvanda kurslar keçməyə başlasın. Bu təkcə Naxçıvana yox, gələcəkdə bütün bölgələrimizə şamil edəcəyimiz plandır.

Sonra kurs iştirakçılarının da fikirlərini öyrəndik:

***Elvin Əsədullayev (kurs iştirakçısı):*** "Kurs çox maraqlı keçir. Nəzəri təlimlərlə yanaşı, kompleksin stadionunda öyrəndiklərimizi əyani tətbiq etmək imkanı əldə edirik. Burada hər bir vəsaitlə təmin olunmuşuq, nəzəri dərslər müasir texniki avadanlıqlardan istifadə edilməklə keçilir. Müasir futbol qaydalarını, eyni zamanda məşqçilikdə günün tələblərinə cavab verən elementləri dərindən öyrənməyə çalışıram. Dəvət olunan futbol mütəxəssislərinin dediklərini bütün dərinlikləri ilə öyrənməyi qarşıma məqsəd qoymuşam".



***Seymur Əliyev (kurs iştirakçısı):*** "Belə bir kursun muxtar respublikamızda təşkili çox yaxşı addımdır. İlk olaraq iştirakçılar adından təşkilatçılara minnətdarlığımı bildirirəm. Bu, başqa bir sistem, başqa təcrübədir. Belə mütəxəssislərdən futbolun sirlərini öyrənmək bizim gələcək karyeramız üçün əla başlanğıcdır. Nəzəri məşğələlərdə çalışdığımız qədər çox öyrənib onları praktik olaraq həyata keçiririk. Mütəxəssislər praktik məşğələlərdə öyrəndiklərimizi hər bir detalına kimi bizə çatdırır, məşq proseslərinin necə aparılmasını öyrədirlər".



*Qeyd edək ki, "C" kateqoriyalı məşqçi kursu mərhələlərlə 3 həftə davam edəcək və sonda hər bir iştirakçıdan imtahan götürüləcək. Kursu uğurla başa vuran gənc məşqçilərə UEFA-nın məşqçilik üçün "C" kateqoriyalı lisenziyaları təqdim olunacaq ki, bu kateqoriyanı alan hər bir məşqçi dünyanın istənilən ölkəsində futbol məşqçisi kimi çalışa bilər.*

**Ceyhun MƏMMƏDOV**

## Növbəti onlayn ekskursiya

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə növbəti onlayn ekskursiya Xatirə Muzeyində keçirilib.*



Ekskursiyanın əvvəlində bələdçi Tamara Novruzova muzeyin yaradılması və fəaliyyəti haqqında məlumat verərək bildirib ki, bu mədəniyyət müəssisəsi 1997-ci ilin yanvar ayında 500 eksponatla fəaliyyətə başlayıb.

2000-ə yaxın eksponatı mühafizə edən muzeyin ekspozisiyasında XIX əsrin sonlarından XXI əsrin əvvəllərinədək erməni daşnaklarının Azərbaycan torpaqlarında törətdiyi qanlı cinayətləri, soyqırımları əks etdirən sənəd və materiallar, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçmiş Vətən oğullarının fotoşəkilləri, şəxsi əşyaları və digər dəyərli eksponatlar qorunub saxlanmaqdadır.

Ekskursiyaya Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şəhidlər haqqında qiymətli kəlamı ilə başlayan bələdçi izləyicilərin nəzərinə çatdırıb ki, Azərbaycanda baş verən qırğınlara, faciələrə ilk dəfə hüquqi-siyasi qiymət verən görkəmli dövlət xadimi olub. Ekspozisiya zalının ilk guşəsində ulu öndər tərəfindən soyqırımı və deportasiya, 20 Yanvar faciəsi ilə əlaqədar imzalanan dövlət sənədlərinin surətləri, eləcə də 20 Yanvar faciəsi zamanı çəkilmiş fotoşəkillər nümayiş olunur.

Ekskursiya zamanı xronoloji ardıcıllıqla ermənilər tərəfindən xalqımıza qarşı törədilən qırğınlar, 1948-1953-cü illərdə baş vermiş deportasiya, II Dünya müharibəsi, 1990-cı il 20 Yanvar və 1992-ci il Xocalı faciələri, 1990-1993-cü illərdə baş vermiş Sədərək döyüşləri, o cümlədən Azərbaycanın müxtəlif bölgələrində gedən döyüşlərdə Vətənin müdafiəsi zamanı şəhid olmuş naxçıvanlı Milli qəhrəmanlar və şəhidlər haqqında məlumat, fotoşəkil, rəsm əsəri və kitabların yer aldığı guşələr haqqında məlumat verilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Seminar-müşavirə olub

Naxçıvan şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin və Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhər Qaraxanbəyli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə "Payız-qış mövsümü dövründə təbii qaz və elektrik enerjisindən istifadə zamanı texniki və yanğın təhlükəsizliyi qaydalarına əməl olunması və yaşayış sahələrində dəm qazından zəhərlənmə hallarının baş verməsinin qarşısının alınması" mövzusunda seminar-müşavirə keçirilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Şəhər İcra Hakimiyyətinin Əraziidarəetmə və yerli özünüidarəetmə orqanları üzrə iş şöbəsinin müdiri İsmayıl Gülməmmədov bu cür seminar-müşavirələrin keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi, daxili xidmət mayoru Mirtaleh Seyidov, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Naxçıvan Şəhər Polis İdarəsinin rəis müavini, polis mayoru Elvin Səfərli, Naxçıvan Şəhər Qaz İstismar İdarəsinin nümayəndəsi Həbib Əliyev çıxış edərək Naxçıvan şəhərində yerləşən icitmai yaşayış binalarının, idarə, müəssisə və təşkilatların qazanxanalarında texniki və yanğın təhlükəsizliyi tədbirlərinə əməl olunması və qazanxanada işləyən mövsümi işçilərin peşə kurslarına cəlb edilməsi, payız-qış mövsümü dövründə vətəndaşlar tərəfindən təbii qaz və elektrik enerjisindən istifadə zamanı təhlükəsizlik qaydalarına əməl olunması məqsədilə görülmüş işlər və qarşıda duran vəzifələrdən danışıblar.



***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Əliyev Rəşid Cümşüd oğlunun adına Naxçıvan Regional Peşə Tədris Mərkəzi tərəfindən verilmiş "Qazanxana maşinisti" sertifikatı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Xanlıqlar kənd sakini Əhmədova Zəminə Əli qızının adına olan 102013003329 reyestr nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 716